AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adina ƏDƏBİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**ZAKİRƏ İMAMVERDİ QIZL ƏLİYEVA**

# TÜRKİYƏ ƏDƏBİ MÜHİTİ VƏ ANAR YARADICILIĞI

5716.01 - Azərbaycan ədəbiyyatı
5717.01 - Dünya ədəbiyyatı (Türkiyə ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI - 2014

Dissertasiya AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: **Akif Məmməd oğlu Hüseynov**
filologiya üzrə elmlər doktoru, professor

Rəsmi opponentlər: **Nurlana Müzəffər qızı Əliyeva**
filologiya üzrə elmlər doktoru, professor

**Jalə Fazil qızı Əliyeva**
filologiya üzrə elmlər doktoru

Aparıcı müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası və Dünya ədəbiyyatı kafedrası.

Müdafiə «_28___» «_02__» 2014-cü il saat «______»-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «______» «__________» 2014-cü ildə göndərilmişdir.

**D 01.131 -Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru:** **İmamverdi Yavər oğlu Həmidov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir dövrdə ədəbi əlaqələrin araşdırılması Azərbaycan ədəbiyyatşünaslığının əsas istiqamətlərindən biridir. Müxtəlif dövrlərin ictimai-siyasi sınaqlarından çıxmış Azərbaycan-Türkiyə ədəbi əlaqələri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişaf mərhələləri, tendensiyaları, qarşılıqlı zənginləşmə prosesləri, eləcə də bu sahədə ayrı-ayrı yazıçı, şair və ədəbiyyatşünasların rolunun öyrənilməsi həmişə öz aktuallığı ilə diqqəti cəlb edib. Ədəbiyyatşünaslıq elmimiz, ədəbi əlaqələrimizin tədqiqi baxımından sanballı tədqiqatlarla zəngin olsa da, müasir dövrümüzün ictimai-siyasi həyatında baş verən dəyişikliklər bir çox sahələrdə, o cümlədən, Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin öyrənilməsi sahəsində yeni araşdırmaların aparılmasını zəruri edir.

Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin müstəqillik qazandığımız 90-cı illərdən sonrakı dövrü, yeni tədqiqatlar üçün kifayət qədər ədəbi-bədii materiala malikdir. Bu materialların əhəmiyyətli bir hissəsi xalq yazıçısı Anarın ədəbi əlaqələrimizdəki rolu və mövqeyi ilə bağlıdır. Anarın Türkiyə ədəbi mühiti ilə yaradıcılıq əlaqələri, ədəbi-mədəni mühitdəki görüşləri ədəbi əlaqələrimizin yeni axarda inkişafını izləmək və öyrənmək, bugünkü mənzərəsini təsəvvür etmək baxımından tədqiqata ehtiyacı olan materiallarla zəngindir.

Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq yazıçısı, Əməkdar incəsənət xadimi, Heydər Əliyev mükafatı laureatı, istedadlı nasir və dramaturq, rejissor və ssenarist, şair və tərcüməçi, ədəbiyyatşünas və publisist, ictimai xadim Anar Rəsul oğlu Rzayevin (1938) Azərbaycan-Türkiyə ədəbi əlaqələri sahəsində rolu və xidmətləri xüsusilə diqqətəlayiqdir. Anar yaradıcılığının məxsusi bir cəhəti onun bütün türk dünyası, qardaş Türkiyə ədəbi mühiti ilə bağlı olmasıdır. Türkiyədə nəşr olunmuş hər bir əsəri sənət uğuru kimi qiymətləndirilən, çıxışları, məruzələri ədəbi körpülər salan Anarın yaradıcılığına Türkiyə tənqidinin münasibəti Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin diqqətəlayiq səhifələrini təşkil edir.

Ümumiyyətlə, Azərbaycan da daxil olmaqla Anarın əsərlərinin nəşr edildiyi ölkələrdə ədibin yaradıcılığına maraq həmişə güclü olmuşdur. Müqayisə üçün qeyd edək ki, nəşr olunma və mütaliə miqyası, ədəbi tənqidin diqqət mərkəzində olması baxımından Türkiyədə Anar yaradıcılığına maraq bir sıra səciyyəvi xüsusiyyətləri ilə seçilir.

Türkiyə ədəbi tənqidinin Anarın əsərləri ilə hələ sovet dönəmindən, XX yüzilliyin 70-ci illərinin ortalarından başlayan tanışlığının tarixi ədəbi hadisələrlə və faktlarla zəngindir. Artıq 80-ci illərdən başlayaraq Türkiyənin tanınmış ədəbiyyatşünasları və tənqidçiləri Anarın simasında özlərinə doğma olan düşüncə tərzinə rəğbətlə yanaşmış, yaradıcılığına maraq göstərmişlər. Türkiyə ədəbi mühitinin tanınmış simaları - Oktay Akbal, Ali Yavuz Akpınar, Feridun Andaç, Ataol Behramoğlu, Ataov Türkkaya, Fakir Baykurt, Bilge Ercilasun, Fikret Türkmen, İldeniz Kurtulan, Mustafa Kutlu, Fatma Özkan, Ayşe Atay və b. ədibin yaradıcılığı haqqında dəyərli fikirlər söyləmişlər. İndiyə kimi qardaş ölkədə yazıçının «Ak liman» (1991), «Beşkatlı yapının altıncı katı» (1995; 2001), «Dede Korkut» (1999), «Seçilmiş öyküler» (1999), «Sıraselvilerde otel odası» (2000; 2008), «Bir fırsat bulsam» (2002), «Dantenin yubilesi» (2002), «Ak koç, kara koç», «Azerbaycan türkcesinin söz varlığı» (2005), «Nazim Hikmet. Kerem gibi» (2009) və s. kitabları işıq üzü görmüşdür.

Ədəbi dərgilərdə («Kül-öykü», «Kardeş edebiyatlar», «Türk dili ve edebiyatı», «Kardeş kalemler», «Türk kültürü», «Tanıtım», «Kültür ve edebiyat» və s.), dövrü mətbuat səhifələrində («Cümhuriyyet», «Tercüman», «Orta doğu» və s.) Anarın ayrı-ayrı əsərləri barədə türk ziyalılarının, ədəbiyyatşünas və tənqidçilərin münasibətini əks etdirən çoxlu sayda yazılar dərc edilmişdir. Nəzərdən keçirdiyimiz həmin yazıların xronoloji ardıcıllığı Anarın Türkiyə ədəbi mühitində daim gündəmdə olan bir yazar olduğunu bir daha təsdiq edir: A.Türkkayanın «Azeri edebiyyatı və Azeri yazarı Anar» (1975), B.Ercilasunun «Azerbaycandan güclü bir ses» (1982), Ə.Kabaklının «Gün işığında «Dedem Korqut» (1983), İ.Ü.Nasrettinoğlunun «Resul Rza oğlu Anar» (1987), Y.Onkun «Azerbaycanın kültür hayatında dönüş noktalarından biri: Anar» (1988), A.Özyalçınerin («Yazılan bozulmaz öyküsü» (1991), İ.Kurtulanın «Anar ve yapıtları üzerine» (1999), F.Andaçın «Bilinc kapılarında bir yazar: Anar» (2000), F.Özkanın «Anarın eserlerine dair» (2003), H.Kaplanın «Uzağı yaxın kılan bir yazar» (2004), Y.Bayerin «Azerbaycan klassiki, ünlü yazar Anar» (2006), İ.Kayacanın «Beş katlı evin altıncı katındakı adam: azerbaycanlı Anar», A.Atayın «Dilimizin büyük kalemi-Anar» (2008), «Utopik ve Distopik düşünceler bağlamında Anarın «Ak koç, kara koç» adlı eseri»(2012) və s.

Türkiyə ədəbi mühiti ilə Anar yaradıcılığının qarşılıqlı təması bu illər ərzində Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin yeni inkişaf axarında davam etmişdir. Türkiyənin aparıcı elm ocaqlarında yazıçının həyat və yaradıcılığına həsr edilmiş elmi araşdırmalar aparılmasına da qərar verilmişdir ki, bu

baxımdan A.Atayın «Anar. Hayatı, sanatı ve hekayeleri» (İzmir, Egey Universitesi, 2006), N.Nağıyevanın «Çağdaş Azərbaycan yazarlarından Anarın romançılığı üzerine inceleme» (Adana, Çukurova Universitesi, 2006) əsərlərini diqqətəlayiq tədqiqat işləri hesab etmək olar.

Onu da qeyd edək ki, yazıçının Türkiyədə 1998-ci ildə 60, 2003-cü ildə 65, 2008-ci ildə 70 illiyinə həsr olunmuş yubiley tədbirləri də görkəmli elm, ədəbiyyat və sənət xadimlərinin - Ahmet Bican Ercilasun, Orhan Söylemez, Ali Akbaş, Nevzat Kösoğlu, Namiq Kamal Zeybək, İsa Kayacan və b. – maraqlı məruzə və çıxışları ilə yadda qalmışdır. Lakin, Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin yeni bir inkişaf dövrünün ən maraqlı səhifələrinə imza atmış Anar yaradıcılığına dair bütün bu qeyd edilən məlumatlar, yubiley münasibətilə keçirilən tədbirlər, yazıçı haqqında dərc edilən materiallar, nəşr edilən kitablar, aparılan tədqiqat işləri indiyə kimi Azərbaycan ədəbi mühitinə yetərincə çatdırılmamışdır.

**Mövzunun tədqiqat tarixi.** Sovet ideologiyasının «dəmir divarlar»ını arxada qoymuş Azərbaycan-Türkiyə ədəbi əlaqələri tarixində XX yüzilliyin ortaları yeni bir mərhələnin başlanğıcı kimi səciyyələndirilir. Hələ 80-ci illərdə cəsarətlə Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin layiqincə öyrənilmədiyini qeyd edən AMEA-nın müxbir-üzvü, professor Əziz Mirəhmədov «Azərbaycan ədəbiyyatına dair tədqiqlər» adlı monoqrafiyasında yazırdı ki, «bizim XIX-XX yüzilliklərdəki ədəbi və ictimai-fəlsəfi fikrimiz tənzimat və məşrutə hərəkatı ilə, yeni mədəniyyət və ədəbiyyat uğrunda mübarizə ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Biz Rusiya ilə, Qərb və Şərqin bir çox ölkələri ilə ədəbi əlaqələrdən danışıb, Türkiyə ilə qarşılıqlı əlaqələri yaddan çaxarsaq, gəldiyimiz nəticələr kəsirli olar»[1].

Sosializm ictimai-siyasi quruluşunun hələ hakim olduğu illərdə A.Əhmədovun «Azərbaycan sovet ədəbiyyatı və Nazim Hikmət» (1978), N.Araslının «Nizami və türk ədəbiyyatı» (1983), C.Yusifovanın «Azərbaycan yazıçılarının XIX əsrin axırı – XX əsrin əvvəllərində Türkiyə ədəbi mühitilə əlaqəsi» (1986) və b. tədqiqat əsərləri nəşr edilmişdir.

Müstəqillik illərinin ab-havası ədəbiiyatşünaslıq elmimizə bu sahədə onlarla yeni tədqiqat əsərləri gətirdi. C.H.Yusifovanın «XIX əsrin sonu, XX əsrin əvvəllində Azərbaycan yazıçılarının Türkiyə ədəbi mühiti ilə əlaqələri» (1991), Ənvər Uzunun «Hüseyn Cavid və türk ədəbi mühiti»

---

[1] *Mirəhmədov Əziz. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, Maarif, 1983, s.283.*

(1996), A.Abıyevin «XIX əsrin birinci yarısı –XX əsrin əvvəllərində türk ədəbiyyatında satira və onun Azərbaycanla əlaqəsi» (1996), X.B.Hümmətovanın «Yunus Əmrənin lirikası» (1997), T.Ə.Həşimovanın «Türk xalqlarının tarixi, ədəbi-mədəni əlaqələri» (2000), Q.İ.Əsgərovanın "Qardaş ədəbiyyatlar» dərgisində Azərbaycan ədəbiyyatı məsələləri» (2004), A.İ.Əliyevanın «Azərbaycan romantikləri və türkçülük hərəkatı» (2005), J.F.Əliyevanın «Çağdaş türk şerinin poetikası» (2006),Ə.T.Qasımovun «Türk xalqlarının ədəbi-mədəni həyatında N.Nərimanovun rolu» (2006), N.S.Mustafayevanın «Rəfiq Zəka yaradıcılığında türkçülük və Türkiyə» (2007), A.Ə.Məmmədlinin «Əhməd Cavad və Türkiyə» (2010), Ş.S.Salmanovanın «Türk xalqları ədəbiyyatında sufizm və Quran» (2010) və b. tədqiqatlar Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin öyrənilməsi və araşdırılması sahəsində uğurlu addımlardır.

Azərbaycan-Türkiyə ədəbi əlaqələri zəngin tarixi və ədəbi-tənqidi materiala malikdir. Müstəqillik qazandığımız indiki dövrdə Azərbaycan ədəbiyyatşünaslıq elmi bu əlaqələrin tarixi mərhələlərini, inkişaf dinamikasını və müasir durumunu artıq yeni dövrün baxışlarıylala tədqiq etməkdədir. Bu baxımdan ədəbi əlaqələrimizin aparıcı qüvvələri olan ədəbiyyat xadimlərinin yeri və rolunun müəyyən edilməsi, onların qarşılıqlı təsir və yaradıcılıq münasibətlərinin tədqiqinə xüsusilə ehtiyac duyulur. Ədəbi əlaqələr tariximizdə üzə çıxarılası, işıqlandırılası ağ səhifələrin kifayət qədər olması bu ehtiyacı şərtləndirən əsas amillərdən biridir.

Anar yaradıcılığına gəlincə, indiyə kimi xalq yazıçımızın yaradıcılığna həsr edilmiş - V.M.Hacıyevin «Anarın bədii nəsri» (1998), R.A.Səlimovanın «1980-1990-cı illər Azərbaycan dramaturgiyasında konflikt və xarakter (Anarın dramaturgiyası əsasında)» (1999), S.A.Nəbizadənin «Yazıçı şəxsiyyəti və müasir nəsrdə bədii əksi (Anar və Y.Bondarevin yaradıcılığı əsasında)» (2003), F.V.Musayevanın «Anarın bədii nəsrində xarakter problemi» (2004) və s. tədqiqatlar aparılmışdır. Lakin Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin müasir dövrü və bu dövrün aparıcı ədəbi qüvvələrindən biri olan Anarın, bu sahədə fəaliyyəti, rolu və xidmətlərini əhatə edən ciddi elmi araşdırmaların da aparılması vacib və əhəmiyyətlidir. Təəssüf ki, bu sahədə indiyə qədər görülən işlər azlıq təşkil edir və bizim hazırkı araşdırmamız bu istiqamətdə atılan ilk addımlardan biri hesab oluna bilər.

**Tədqiqatin məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Anar yaradıcılığına Türkiyə ədəbi tənqidinin münasibətini müəyyənləşdirmək və Azərbaycan-Türkiyə ədəbi əlaqələrində onun yeri və rolunu işıqlan-

dırmaqdır. Bu məqsədlə tədqiqat prosesində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilmişdir:

- Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin tarixinə qısa nəzər yetirmək;
- Anar yaradıcılığına Türkiyə ədəbi tənqidinin münasibətini mərhələlərlə izləmək və işıqlandırmaq;
- Azərbaycan-Türkiyə ədəbi əlaqələrində Anarın yeri və rolunu müəyyənləşdirmək;
- Türkiyə ədəbi tənqidinin Anar yaradıcılığına münasibətini əks etdirən materialları üzə çıxarmaq, onların təhlilini aparmaq;
- Anarın nəsr əsərlərinin qəhrəmanlarının xarakterinə türkiyəli tənqidçilərin baxışlarını müqayisəli şəkildə təhlil etmək;
- Türkiyə ədəbi-ictimai fikrində Anarın mövqeyini, nüfuzunu təsbit edən materialları nəzərdən keçirmək və qiymətləndirmək.

**Tədqiqatin elmi yeniliyi**. Azərbaycan ədəbiyyatşünaslığı söz sənətimizin başqa xalqlarla əlaqələrinə dair əsərlərlə zəngindir. Bunların sırasında Azərbaycan ədəbiyyatının rus, Ukrayna, gürcü, özbək, Litva, latış, eston, özbək, qazax, türkmən, Dağıstan, eləcə də Avropanın və Şərqin digər xalqları ilə ədəbi əlaqələrinin müxtəlif aspektlərinə həsr olunmuş tədqiqatlar üstünlük təşkil edir. Lakin Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin əhəmiyyəti baxımından müasir Azərbaycan ədəbiyyatının ən tanınmış nümayəndələrinin yaradıcılığına Türkiyə ədəbi tənqidinin münasibətini əks etdirən tədqiqat işlərinə xüsusi ehtiyac hiss olunur.

Tədqiqatın ortaya qoyduğu problemin yeniliyi ondadır ki, indiyə kimi xalq yazıçısı Anarın Azərbaycan-Türkiyə ədəbi əlaqələrindəki rolu, xidmətləri, ədəbi-mədəni mühitdə mövqeyi öyrənilməmiş, Türkiyə ədəbi mühiti və Anar yaradıcılığı müstəvisində ədəbi əlaqələrimizin yeni inkişaf dövrünün materialları üzə çıxarılaraq, tədqiq edilməmişdir. İndiyə kimi Türkiyədə işıq üzü görmüş xeyli sayda materiallar, kitablar, elmi tədqiqat əsərləri və s. toplanaraq, Azərbaycan ədəbi-mədəni mühitinə tam çatdırılmamış, ədəbi əlaqələr kontekstində Anar yaradıcılığına həsr olunmuş kompleks araşdırma aparılmamışdır.

**Tədqiqatin obyekti.** Dissertasiya işinin əsas tədqiqat obyekti Anarın müxtəlif illərdə qələmə aldığı və Türkiyədə işıq üzü görən nəsr əsərləri, Azərbaycan-Türkiyə ədəbi əlaqələrindəki rolunu və xidmətlərini təsbitləyən digər yaradıcılıq materialları, eyni zamanda, onun ədəbi şəxsiyyətinə, bədii əsərlərinə Türkiyə ədəbi tənqidinin baxışlarını əks etdirən mənbələr – kitablar, dövri mətbuatda dərc olunmuş materiallar və elmi tədqiqatlardır. Eyni

zamanda, türkdilli İnternet saytlarında – ədəbi orqanlar, yazıçı və ədəbiyyatşünasların fərdi saytları və s. – xeyli materiallar dərc olunmuşdur ki, yayım miqyasına və zənginliyinə görə onlar heç də ənənəvi ədəbi nəşrlərdən geri qalmır. Buna görə də imkan daxilində həmin materiallar da tədqiqata cəlb edilmişdir.

**Tədqiqatin elmi-metodoloji əsası.** Tədqiqat əsasən müqayisəli-tipoloji metod əsasında aparılmışdır. Türkiyəli tənqidçilərin, ədəbiyyat xadimlərinin, ziyalılarının mövzu ilə bağlı əsərlərinə istinad olunmuş, Türkiyə araşdırıcılarının Anara həsr edilmiş ən mühüm əsərlərindəki təhlillər və elmi-nəzəri qənaətləri əsas götürülmüşdür.

**Tədqiqatin elmi-nəzəri və təcrübi əhəmiyyəti**. Tədqiqat işində diqqət yetirilən məsələlər və alınan nəticələr Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin araşdırılması sahəsində nəzəri və təcrübi mənbələrdən sayıla bilər. Türkiyə ilə Azərbaycanın ədəbi əlaqələr tarixini ayrıca yaradıcı şəxsiyyətin simasında öyrənilməsinə yönəlmiş dissertasiya işi bu sahədə gələcək tədqiqatçılar üçün gərəkli ola biləcək faktlarla zəngindir. Azərbaycan-Türkiyə ədəbi əlaqələrindəki inkişaf tendensiyalarını öyrənmək üçün elmi mənbə kimi faydalı olacaq dissertasiya, çağdaş Türkiyə ədəbi tənqidinin öyrənilməsi baxımından da əhəmiyyətlidir.

Dissertasiyadan respublikamızın ali məktəblərində ədəbiyyatımızın aparıcı sənətkarlarının yaradıcılığını, ədəbi əlaqələrimizin tarixini və müasir mərhələdə inkişaf yollarını tədris edərkən istifadə oluna bilər. Bu qəbildən olan digər araşdırmalar kimi hazırkı dissertasiya işindən də çoxcildlik «Azərbaycan ədəbiyyatı tarixi»ni nəşrə hazırlayanlar faydalana bilərlər.

**Tədqiqatin aprobasiyası**. Hazırkı dissertasiyanın mövzusu AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi şurasında təsdiq edilmiş və «Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr» şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas elmi nəticələri müəllifin 16 adda nəşr etdiyi kitab və məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanin quruluşu**. Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞIN ƏSAS MƏZMUNU

Dissertasiyanın I fəsli **«Azərbaycan-Türkiyə ədəbi əlaqələri və Anar»** adlanır. «Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin tədqiqi tarixindən» adlı *birinci yarımfəsildə* müxtəlif dövrlərin bir sıra əlamətdar faktlarından bəhs edilir. Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin təməlində «Orxon-Yenisey», «Qutadqu bilik», «Oğuz Xaqan», «Dədə Qorqud» kimi ortaq ədəbi-mədəni abidələr, qarşılıqlı ədəbi tərcümələr, Azərbaycan ədəbiyyatında Türkiyə, Türkiyə ədəbiyyatında Azərbaycan mövzusu, bu sahədə aparılan tədqiqatlar, yazıçı və şairlərimizin, ədəbiyyat adamlarının dostluq və yaradıcılıq əlaqələrinin durması fikri önə çəkilir. Daha sonra görkəmli dilçi alim, professor Vaqif Aslanovun yazdığı kimi «formaca milli, məzmunca sosialist qəlibə salınan, marksist-leninçi ideologiyanın daşıyıcısı olmaq məcburiyyətində qalan və əsas yaradıcılıq metodu sosializm realizmi olan sovet dövrü Azərbaycan ədəbiyyatının öz türklüyünü qoruyub saxlaya bilməsi»[2] faktını təsbit edən məlumatlar verilmişdir.

Xalq yazıçısı Anar hələ sovet dönəmindən bir türk yazarı kimi türk xalqlarının ədəbi mühitinin diqqət mərkəzində olmuşdur. Türkiyə ədəbi mühitinin Anarla 80-ci illərin sonunda ilk hekayələrinin nəşri ilə başlanan tanışlığı, artıq 90-cı illərdən müstəqillik illərinin Azərbaycan-Türkiyə ədəbi əlaqələrində diqqətə layiq yeni bir səhifəyə çevrilmiş oldu. Anar yaradıcılığı ilə tanış olan, əsərlərini araşdırmaya meylli olan hər hansı türk tənqidçisi yazıçınn simasında və əsərlərilə Azərbaycanı, onun ədəbiyyatını tanıyırdı.

«Azərbaycan-Türkiyə ədəbi əlaqələrində Anarın yeri» adlanan *ikinci yarımfəsildə* Anarın Türkiyə ədəbi mühitində tanınması mərhələləri işıqlandırılır. Hələ gənc yaşlarından Türkiyəyə, Türkiyə ədəbiyyatına, ədəbi mühitinə böyük məhəbbətini öz mənəvi dünyasında yaşadaraq, yaradıcılıq palitrasının rənglərinə hopdurmuş Anarın türkçülük ideyaları ilə əhatə olunmuş bir ailədə - XX əsrin böyük sənətkarları, xalq şairləri R.Rza və N.Rəfibəyli ocağında, Rəfibəylilər mühitində böyüyüb-başa çatmasından bəhs edilir.

1975-ci ilin mayında SSRİ Yazıçılar İttifaqının nümayəndə heyətinin tərkibində Türkiyədə olan Anar burada Y.Kamal, F.H.Dağlarça, H.Taner, F.Baykurt, B.Yıldız, A.Özyalçıner, Ç.Bektaş, A.Behramoğlu və K.Özerlə, qorqudşünas alim O.Ş.Gökyayla və b. ilə görüşür, mətbuat konfranslarında

---

[2] *Aslanov Vaqif. Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələri http://www.edebiyatdefteri.com/index.sp?istek=tum_yazilar&k=detay&yazi_i=33404*

çıxış edir. Həmin görüşlərdən sonra Anarla yaxından tanış olan Fakir Baykurt «Nə yazıq ki, nəşr olunmuş səkkiz kitabı olan yazarı yetərincə tanımamışıq» fikirini oxucuları ilə bölüşür.[3]

1980-1990-ci illərdə Anarın «Vestiyerde çalışan kadının anlattıkları», «İyi padşahın masalı», «O gecenin seheri», «Yağmur dindi» hekayələri ədəbi dərgilərdə dərc olundu, haqqında Bayram Kamal Çukurkavaklının «Azerbaycan edebiyyatının ünlü yazarı Anarla bir konuşma», Özer Kemalın «Azeri yazar Anar edebiyyatlarının Türkiyede tanınmamasından üzgün», Ataov Türkkayanın «Azeri edebiyyatı və Azeri yazarı Anar» və s. kimi məqalələr yazıldı.

Anarın Türkiyədə Azərbaycan, Azərbaycanda Türkiyə ədəbiyyatı, mədəniyyətini, incəsənətini tanıtmaq sahəsində fəaliyyəti hər iki ölkədə dərc edilən çoxsaylı yazılarıyla tamamlanırdı: «Tarihi vezifemiz, yazar ve aydın olarak borcumuz» («Yağmur», 2000), «1300 senesinde «Kitabi-Dede Korqut» («Dialoq Avrasiya», 2000), «Kitab dünyası da canlanacaq» («Hürriyyet», 2001), «Kerem gibi» (Nazim Hikmət. «Günəşi içənlərin türküsü», 2002), «İstanbulu dinləyən heykəl» (Orxan Vəli. «Bütün şeirlər», 2005), «Tanrıyla sohbet» (Vaqif Samedoğlu. «Ben buradayam Tanrım», 2005), «60-cı yıllar nesli olarak daha şanslıyık» («Kül-öykü», 2005), «Karışık zamanın şairi», (S.Babullaoğlu. «Haziranda okunan nağmeler», 2006), «Salam Dünya!», «Fikret Qoca tesellisi» («BAY», 2006), «İyi ki şair doğuldum» (Almas İldırım. «Hazardan hazara», 2007) və s.

Anar Türkiyə mətbuat səhifələrində mənsub olduğu xalqın dərdlərindən də söz açırdı: «Ermenilere tokat» («Hürriyet», 1989, 30 nisan), «Danışa bilmirem» (1990-cı il Qara Yanvar hadisələri haqqında, «Azərbaycan. Türk kültür dergisi», 1990), «Azeriler, torpaq bütünlügü konusunda taviz vermeyecek» («Bursa», 1991, 25 nisan), «Karabah bizimdir, kimse alamaz» («Hakimiyet qəzeti, 1991, 25 nisan), «Rusların Baküye müdahilesi katliamı yaratdı» («Orta doğu», 1993, 25 ocaq). Türkiyə mətbuatında Anar yaradıcılığı ilə bağlı azərbaycanlı müəlliflərin də xeyli sayda məqalələri işıq üzü görmüşdür.

Yazıçı Türk dünyasına xeyirxah xidmətlərinə görə dörd önəmli ödülə - Balkanlar Aydın və Yazarlar Birliyinin (BAY) «Türk dünyasına xidmətə görə», «Türk dünyası mədəniyyət və sənət Şərəfi», Türk Dünyası Yazarlar

---

[3] *Baykurt Fakir. Anar haqda // «Yeni gün», 1975, 4 hazeran*

və Sənətçilər Vəqfinin (TURKSAV) «Türk dilinə xidmət» və «Türk dünyasına xidmət» mükafatlarına- layiq görülmüşdür.

«**Anar yaradıcılığı Türkiyə ədəbi tənqidində**» adlanan II fəslin «Anarın nəsri Türkiyə ədəbi tənqidində» adlanan *birinci yarımfəslində* türkiyəli tənqidçilərin Anar yaradıçılığına münasibətlərinin geniş təhlili təqdim edilir. Egey Universitetinin professoru Fikret Türkmen ilk tanışlığından Anarı Azərbaycanın milli təməllərini qoruyan, ümumtürk mədəniyyəti içində özünə yer alan və bu yolda böyük səylər göstərən bir vətəndaş-yazıçı kimi oxuculara təqdim edir. Tənqidçi yazılarında Anarı «klassiklərdə gördüyümüz mükəmməl texnikaya və detallara xüsusi fikir verən bir üsluba sahib», «fikrini yumorla bəzəmək kimi orijinal özəlliyi» olan bir sənətkar kimi qiymətləndirirdi.[4]

«Ağ liman» povesti Anarın türkiyəli tənqidçilər tərəfindən geniş təhlil edildiyi ilk əsərlərindəndir. «Ak kadın» jurnalı yazırdı ki, «Ak liman» türk okuyucusuna Azerbaycan aydınlarının dünyasını tanıtdı».[5] Povest haqqında verilmiş bu rəy çox qısa da olsa Türkiyədə əsərə verilən ilk qiymət idi. Vaxtilə Azərbaycan ədəbi tənqidi ilə yanaşı (X.Əlimirzəyev, M.Arif, Y.Qarayev, S.Əsədullayev və b.), rus ədəbi tənqidinin də (V.Lavrov, İ.Anisimov, M.Urnov, L.Anninski və b.) əsərə münasibətinin birmənalı olmadığı məlumdur. Maraqlıdır ki, onilliklər sonra bu əsərlə tanış olan türkiyəli tənqidçi Mustafa Kutlu ağ limanda lövbər salmış qırmızı gəmilərin Batının azad nəğmələr söylənən dənizlərinə doğru üzüb gedə biləcəyinə[6] əminliyini ifadə edən obyektiv tənqidi mühakiməsini bildirərkən, öz zamanından çıxış edirdi.

Tənqidçi Orhan Söylemez əsərdə insanları robotlaşdıran sistemin tənqid hədəfi olduğunu qeyd edir. Anarın «monotonlaşma» təhlükəsi ilə üz-üzə qalaraq, bədbəxt olan insanların xarakterini açmaqla cəmiyyəti narahat edən suallara cavab axtarması fikrini önə gətirir.[7]

Anarın 70-ci illərdə yazılmış əsərlərilə 90-cı illərdə tanış olan türkiyəli tənqidçilər Anarın əsərlərinə sovet ideologiyasına xidmət edən ədəbiyyat mövqeyindən yanaşmırlar. Əksinə, Anarın əsərlərində bu

---

[4] *Fikret Türkmen. Elm qapılarında bir yazıçı dost-Anar // «525-ci qəzet», 2002, 25 iyun.*

[5] *Anar. «Ak liman» // «Ak kadın», 1991, № 9-10.*

[6] *Kutlu Mustafa.«Ak liman» // «Dergah» dergisi, 1991, ekim*

[7] *Orxan Söylemez. Anarın Türkiye de yayınlanan romanlarına genel bakış // «Kardeş kalemler», 2008, №17, s.85.*

qəbildən ədəbi faktların olmadığını, obrazlarının simasında bu ideologiyanın məngənəsində sıxılan cəmiyyətin, insanın qəlb çırpıntılarının daha həssalıqla duyulduğunu qeyd edirlər..

Feridun Andaç Anarın nəsrində N.V.Qoqolun ironiyasını, A.P.Çexovun hüznünü, Tomas Mannın dərin düşüncələr dünyasının izlərini görür. Veysel Şahin də Anar yaradıcılığında G.Mopassanın, A.P.Çexovun təhkiyə tərzini xüsusi qeyd edir. İrfan Ülkü «Otel otağı»nı L.Tolstoyun «İvan İliçin ölümü» əsəriylə müqayisə oluna biləcək bir ustalıqla yazılmış əsər hesab edir. Yazıçı və alim Fırat Kızıltuğ «Ak koç, kara koç» əsərində Soljenitsının «Qulaq arxipelaq», Artur Köstnerin «Zülmət və ədəbiyyat», Çingiz Dağçının «Qanlı illər», F.Dostoyevskinin «Ölülər evindən yazılar» kimi əsərlərin səviyyəsini hiss etdiyini yazır. Bu nümunələrin sayını artırmaq da olar. Təəssüf ki, belə analogiyalar kontekstində nədənsə yazıçının cəmiyyəti insanlığa çağırması kimi humanist missiyasının bədii-ictimai dəyərindən geniş bəhs etmir.

Tənqidçilər bu məntiqi nəticələrə necə gəlib çıxdıqlarını geniş şərh etməkdən çəkinirlər, nəzəri əsaslarda təhlillərə yer ayrılmır. Bu bir tərəfdən Azərbaycan ədəbiyyatının bu dövrünün ədəbi-bədii fikir axarı, inkişaf və təkamül mərhələləri, ədəbi şəxsiyyətlərinin bioqrafiyası və yaradıcılığı ilə Türkiyə ədəbi tənqidinin hələ kifayət qədər tanış olmamasından irəli gəlir. Digər tərəfdən, müasir dövrümüzdə ədəbi əlaqələrimizin həm tarixi, həm də elmi-nəzəri baxımdan informasiyalaşdırılmasında boşluqların olması ilə şərtlənir. Bütün bunlar isə, son nəticədə, ayrı-ayrı sənət adamlarının, o cümlədən Anarın yaradıcılığına münasibətdə tarixi, siyasi-ideoloji dövrün ədəbi ab-havası nəzərə alınmaqla dolğun fikirləri ortaya qoymağa imkan vermir.

Nəticə etibarilə, bu müqayisələr arzu edilən səviyyədə daha geniş təhlillərdə öz əksni tapmamış qalsa da, daha ətraflı və geniş nəzəri təhlilləri ortya qoymasa da, fikir etibarilə ədəbi-faktiki əhəmiyyətini itirmir.

«Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsəri haqqında Türkiyə mətbuatında, toplularda onlarla məqalələr - Bilge Ercilasunun «Azerbaycandan güclü bir ses», «Beş katlı yapınln altıncı katı», Y.Gediklinin «Anar ve «Beş katlı evin altıncı katı», Kaplan Halenin «Beşinci kat vardır. Altıncı kat hayaldır», Yınanc Kafiyenin «Beşmertebeli evin altıncı mertebesinden 1965-ci yıl Bakûsünün sosial-medeni gorünüşü», İsa Kayacanın «Beş katlı evin altıncı katındakı adam: Azerbaycanlı yazar Anar» və s.- dərc edilmişdir. Tənqidçilər əsərin obrazları haqqında danışarkən, əsasən, onların canlı və dolğun olduğunu, əsərin əsas qəhrəmanları olan Təhminə və Zaurun arasındakı məhəbbətin orijinal üslubda verildiyini, həyat gerçəkliklə-

rinin real təsvir edildiyini qeyd edirlər. Bununla belə, bir sıra türkiyəli tənqidçilər əsəri sadəcə eşq hekayəsi kimi də dəyərləndirmişlər. Xüsusilə romanın baş qəhrəmanı Təhminə obrazı haqqında türkiyəli tənqidçilərin təhlil və şərhlərində fərqli baxışlar var.

Tənqidçi-jurnalist Hale Kaplan yazılarından birində əsəri bir çox türk filmlərinin mövzusu olmuş və türk mədəniyyətində də tez-tez rast gəlinən «bar qızı» və «ak pak ailə çocuğu»nun məhəbbətindən bəhs edən bir dram əsəri kimi dəyərləndirir: «Şarkıcı kız mazbut aile çocuğu... Ahlaki değerlerin çöküşü anlatılırken gereksiz yere uzun tutulan bar muhabbeti izleyeni sıkıyor».[8]

Lakin Hale Kaplanın məsələyə sırf bu mövqedən yanaşaraq, əxlaqi dəyərlərə zidd sayılan bar məhəbbətinin öz həzinliyi ilə tamaşaçının ürəyini həyəcanlandırması fikri, xüsusən də «bar qızı», «bar məhəbbəti» kimi fikirləri ilə razılaşmaq olmur. Məsələ ondadır ki, əksər Azərbaycan oxucusu, ədəbiyatşünası və tənqidçisi Təhminəni türk filmlərində rastlaşdığımız «bar qızı» anlamından daha yüksək intellektli, dünyagörüşlü, zəngin mənəvi aləmi olan və daima sərbəstliyə, azadlığa üstünlük verən bir insan kimi təqdir edir. Təhminənin faciəsinin arxasında tənqidçinin aydın görə bilmədiyi dövrün ictimai gerçəklikləri, azad olmayan bir cəmiyyətdə, azad insanın faciəsi dayanır.

Orhan Söylemez yalnız duyğuların var olduğu, insanların xoşbəxtliyə can atdığı həyatda «altıncı kat»a ancaq Təhminə kimilərin layiq olması fikrini bir daha təsdiq etməklə kifayətlənir. Amma əsərdə söhbət təkcə layiq olmaqdan getmir. Professor Fikret Türkmenin dediyi kimi «Beşmərtəbəli evin altıncı mərtəbəsi»ndə olduğu kimi, altıncı mərtəbəni itirən[9] insanlıqdan gedir.

Ayşe Atayın bu əsərin obrazlarına münasibətdə tənqidçi mövqeyi daha məntiqlidir. A.Ataya görə Zaur və Təhminənin daxili aləmində həyatları boyu doldura bilməyəcəkləri bir mənəvi boşluq var. Bu boşluq onların yaşadığı mühitin qanunları ilə, cəmiyyətin anlamaq istəmədiyi «yasak aşk»la bağlıdır.

Ayşə Atay Anarın yaradıcılığını daha geniş araşdıran tədqiqatçılardandır. Müəllifin «Anar. Hayatı. Sanatı ve hekayeleri» adlı tədqiqatın (İz-

---

[8] *Kaplan Hale. Beşinci kat vardır. Altıncı kat hayaldır (İstanbul Belediye teatrındakı tamaşaya resenziya) // «Yeni şafak» qazetesi, 2003, 5 ocak.*

[9] *Fikret Turkmen. Elm qapılarında bi yazıçı dost – Anar //525-ci qəzet, 2002, 25 iyun.*

mir, 2006) və «Beş katlı evin altıncı katındakı adam: Anar» (Ankara, 2008) monoqrafyasının əsas qayəsi «türk ədəbiyyatlarında Anarın yerini və daşıdığı dəyəri ortaya qoymaq» olmuşdur. Hər iki əsərdə müəllif Anarın həyat və yaradıcılığı haqqında məlumat verir və nəsr əsərlərini təhlil edir.

Türkiyədə Anar yaradıcılığına dair daha bir tədqiqat işində - N.Nağıyevanın «Çağdaş Azerbaycan yazarlarından Anarın romançılığı üzerine bir deneme» adlı araşdırmasında da əsas təhlil obyekti Anarın nəsr əsərləri seçilmişdir. Hər iki tənqidçinin – A.Atayın və N.Nağıyevanın –diqqət obyekti kimi seçdiyi bədii əsərlərin təhlili metodikası strukturca demək olar ki, eynidir. Bu tədqiqatın A.Atayın tədqiqatından fərqli iki cəhəti var, bunlar təhlil obyekti olaraq irihəcmli əsərlərin: 6 romanın («Ak liman», «Beşkatlı binanın altıncı katı», «Dantenin yubilesi», «Bir firsat bulsam», «İlgi bağı», «Ak koç, kara koç») seçilməsi və həmin əsərlərin yazıldıqları tarixi dövrün sosial və siyasi durumu müstəvisində təhlil edilməsidir. Tədqiqatçı əsərlərin doğurduğu təəssüratın, hisslərin psixoloji-məntiqi dərkini mövzulara görə sistemləşdirməyə səy göstərmişdir.

Əsər haqqında Fırat Kızıltuğun «Ağ koç, kara koç», İsmihan Kadirin «Ak koç», İrfan Ülkünün «Ak koç, kara koçu teqdim», İsa Kayacanın «Ak saç, kara saç» və s. məqalə və resenziyalar yazılmışdır.

Türkiyə ədəbi mühitinin böyük maraqla qarşıladığı əsərlərdən biri də Anarın «Sıraselvilerde bir otel odası» adı ilə nəşr edilmiş «Otel otağı»dır. Tənqidçi Feridun Andaç «Uzağı yakın kılan bir yazar: Anar» adlı məqaləsində «Sıraselvilerde bir otel odası»nı dərin mənalarla zəngin bir əsər, bir toplumun dünəninin, bu gününün hekayəsi kimi dəyərləndirir, yazıçının inandırıcı bir ziyalı obrazını yaratdığını və bu obrazın alt-üst olan mövcud münasibətlərə, itirilən dəyərlərə qarşı ümidlərin rəmzi ola biləcək bir sima olduğunu vurğulayır.

Orxan Söylemez isə romanın mövzusunun reallıqlara söykəndiyini, lakin «kırğınlık», «küskünlük» əsəri kimi təsir bağışladığını yazır. İrfan Ülkü «Anar ve asrın adamı olmak»[10] məqaləsində Anarın Sovet Birliyinin bir parçası olan Azərbaycanda o, bəzən ironik şəkildə, bəzən Kafka üslubunda, bu cəmiyyətdə insanların yabançılaşmasını, tənhalığını təsvir etdiyini qeyd edir.

Betül Coşkun «Baküden İstanbula: Bir Azeri yazarın kurgusal yolculuğu» adlı məqaləsində əvvəlcə «Sıraselvilerde bir otel odası» əsərinin müəllifinə türk yazar ve fikir adamlarının böyük təsir qüvvəsindən bəhs

---

[10] *Ülkü İrfan.Anar ve asrın adamı olmak // «Yeni çağ», 2003, 17 ekim.*

edir, daha sonra Necip Fazılın Kısaküreyin şerindəki otel odası təsvirləri ilə romandaki otel odası arasında, şeirin son - «Ağlayın, aşinasız, sessiz, can verenlere /Otel odalarında, otel odalarında!...» - misraları ilə romanın qəhrəmanı Kərimin sonu arasında bənzərliyi müqayisə edir.[11] Həqiqətən də, Anar özü Fatih Üniversitetində görüşdəki çıxışında bu romanı Necip Fazılın «Otel Odaları» şeirinden ilham alaraq yazdığını qeyd etmişdi.

Görkəmli tədqiqatçı və tərcüməçi, professor Fatma Özkan yazıçının yaradıcılığına dair «Anarın eserlerine yansıyan fikir dünyası», «Anarın eserlerine dair bir kaç söz», «Anar: Yazar çağının vicdanı olmalı» və s. məqalələrlə Türkiyə mətbuatında, ədəbi jurnallarda çıxış etmişdir.

«Anar və Türkiyə ədəbi-mədəni, ictimai mühiti» adlı *ikinci yarımfəsildə* Anarın bədii yaradıcılığı ilə yanaşı ədəbi-mədəni, ictimai fəaliyyətinin də Türkiyə ədəbi mühiti, ədəbi tənqidinin diqqət mərkəzində olmasından bəhs edilir. Yavuz Onkun «Anar Türkiye ve Azerbaycan arasında kültür köprüsünün temellerini korumaktadır» fikrini zaman özü təsdiq etdi.[12] 90-cı illər ədəbi əlaqələr tariximizin yeni mərhələsinin başlanması ilə əlamətdardır. Anar yaradıcılığı da bu dövrün əhəmiyyətli bir silsiləsinin tərkib hissəsi olmaqla Türkiyə-Azərbaycan ədəbi əlaqələrində öz izlərini qoymuş oldu.

Türkiyə ədəbi mühitində müxtəlif görüşlərdə, konfrans və simpoziumlarda, əlamətdar yubiley günlərində və s. Anarın iştirakı, yazıçının Azərbaycan mədəniyyətinin, ədəbiyyatının tarixindən və bu günündən, ədəbi əlaqələrimizdən bəhs edən çıxışlarıyla, mətbuatda dərc edilmiş məqalələri və nəşr edilmiş əsərlərilə yadda qalmaqdadır.

**«Nəticə»** bölməsində, Anarın yaradıcılığı haqqında Türkiyə ədəbi mühitində səslənmiş fikirlərin, yazılmış materialların təhlili həm sovet dövrü və həm də müstəqillik illəri kontekstində, ədəbi əlaqələr müstəvisində yeni münasibətləri ortaya qoyması qeyd edilir. Həmin münasibətlər, Anarın Türkiyədə nəşr edilmiş əsərləri, ədəbi mühitdəki görüşləri, çıxışları, birgə yaradıcılıq fəaliyyətlərində, eyni zamanda yaradıcılığına həsr edilmiş kitablarda, tədqiqatlarda, ədəbi dərgilərdə və mətbuat səhifələrində dərc edilmiş məqalələrdə öz əksini tapmışdır.

---

[11] *Betül Coşkun. Baküden İstanbula: Bir Azeri Yazarın Kurgusal Yolculuğu // http://www.yagmurdergisi.com.tr/archives/konu/bakuden-istanbula-bir-azeri-yazar-eylul-2012*

[12] *Onk Yavuz.Azerbaycanın kültür hayatında dönüm noktalarından biri: Anar // «Tanıtım», 1988, №106,s.7-8; №42, s.7.*

Ümumiyyətlə, Anarın yaradıcılığına Türkiyə ədəbi tənqidinin münasibəti ilə bağlı qənaətlərimiz belədir:

– Anarın simasında Türkiyə-Azərbaycan ədəbi əlaqələrinin müasir mərhələsində sənətkarlarımızdan birinin yeri və onun yaradıcılığına ədəbi-tənqidi mühitin münasibəti tədqiq edilmişdir.

– Türkiyədə Anar yaradıcılığına dair daha dərin elmi araşdırmalara təşəbbüslərin getdikcə artması hiss olunur. İlk tanışlıq dövründə, 80-90-cı illərdə yazılan materialların elmi yükü zəif olsa da və əsasən ümumi xarakter daşısa da artıq sonrakı illərdən daha ciddi, prinsipial araşdırmalar (A.Atay, Betül Coşkun, Ş.Veysel) diqqəti cəlb edir.

– Eyni zamanda son illərin araşdırmalarında Anarın ayrı-ayrı əsərlərinin bədii-fələsəfi mahiyyətinin elmi təhlillərlə açıqlanmasına təşəbbüslərin artması müşahidə edilir.

– Daha ciddi və geniş elmi araşdırmaların otraya çıxması isə zamana möhtacdır. Bu zamanın yaxınlaşması üçün ədəbi əlaqələrimizin informasiyalaşdırılması proseslərinin intensivləşməsi, ədəbiyyat və elm adamlarının səmərəli yaradıcılıq təmaslarının arzu edilən səviyyəyə yüksəlməsi vacibdir.

– Bununla belə, türkiyəli tənqidçilər Anar əsərlərinin bədii informasiya yükünü, ədəbi prosesdəki yeri və bədii-fəlsəfi mahiyyətini, tarixi dəyərini təhlil edərək, sənətkarın türk dünyasındakı layiqli yerini, ədəbi əlaqələrimizin inkişafındakı rolu və xidmətlərini təsbit edən fikirlər söyləmişlər.

– Türkiyə ədəbi tənqidi Anarın yaradıcılığında zəngin mədəni-ədəbi irsə malik Azərbaycan obrazını, bəşəri dəyərlərə söykənən insanlıq fəlsəfəsini, ədəbi-ictimai mühitləri qovuşduracaq yeni ideyaları və yazıçının simasında bu ideyaların aparıcı və ilhamverici qüvvəsini görür.

**Dissertasiyanın əsas elmi nəticələri müəllifin nəşr etdiyi kitab və məqalələrində öz əksini tapmışdır.**


1. Anar dünya ədəbi mühitində //AMEA Nizami ad. Ədəbiyyat İnstitutunun Əsərləri, 2007, XX cild, s.145-154.
2. Anar yaradıcılığı Türkiyə ədəbi mühitində //«Azərbaycan» jurnalı, 2008, №12, s.180-191.
3. Анар – био-библиографическая справка //Лаврова Людмила. Знакомый незнакомец. Баку: Азернешр, 2008, s.480-514. */Ə.Əfəndiyevlə/*
4. Milliden beşeri olana kadar yükselen Anar //Aserbaidschanischer Akademischer Verein e.V.D-44739 Bochum •Germany • http://-asav.bochum.googlepages.com/Eliyeva_anar.pdf
5. Anar yaradıcılığına Türkiyə ədəbi tənqidinin baxışları //Ədəbi əlaqələr //AMEA Nizami ad. Ədəbiyyat İnstitutu, IV buraxılış. Bakı: Qartal, 2010, s.193-209.
6. «Ak liman»a Türkiyeden bakışlar //Türkbilim /Ege Universitesi Edebiyat fakultesi, 2010, №3, s.75-81.
7. Анар - Пленник века /Сост.: З.Алиева, Баку: Азернешр, 2010, 628 s.
8. Anar – Əsrin əsiri /Tərt. Z.Əliyeva, Ə.Əfəndiyev, Bakı: Azərnəşr, 2010, 712 s.
9. Anar – ömür yolu, yaradıcılığı. Birinci kitab. Баку: Азернешр, 2010, 608 s. */Ə.Əfəndiyevlə/*
10. Çağdaşları Anar haqqında. Ikinci kitab. Bakı: Azərnəşr, 2010, 524 s. */Ə.Əfəndiyevlə/*
11. Azərbaycan-Türkiyə ədəbi əlaqələri tarixinə bir nəzər (Anarın yaradıcılığı əsasında) // Türk dünyası: dünəni və bu günü: Beynəlxalq elmi konfransın materialları, C.I. Bakı: BDU, 2011, s.314-316.
12. Türk dünyasinın sabahkı tarixinin elçiləri. M.F.Axundzadə və Anar // Tarix və gerçəkilik /Azərbaycan Tarix Qurumu, 2011, №1, s.72-75.
13. Anarın uşaq hekayələrində təhkiyə üslubu və müasirlik (“Sayların sərgüzəşti” və “Əlifba” hekayələri əsasında) // II Beynəlxalq Türk xalqları çocuq ədəbiyyatı konqresinin materialları. – Bakı: Qafqaz Universiteti, 2012, s.312-316.

14. Anar yaradıcılığı Ayşə Atayın tədqiqatında // «Ədəbi əlaqələr». AMEA Nizami ad. Ədəbiyyat İnstitutu, VII bur. Bakı: Qartal, 2013, s.125-133.
15. Проза Анара в турецкой литературной критике // Филологические науки: вопросы теории и практики. – Тамбов: «Грамота», 2013. - №8 (26). Часть. 2, стр.16-20.
16. Творчество народного писателя Азербайджана Анара в историко - литературных связьях с Россией и Турцией // Гилея. Науковий висник. Зборник наукових праць / Национальний педагогичный университет им.М.П.Драгоманова /Украинска Академия Наук. – Киев: ВИР УАН, 2013. Вып.73, стр.273-275.

**З.И.АЛИЕВА**

# ЛИТЕРАТУРНАЯ СРЕДА ТУРЦИИ И ТВОРЧЕСТВО АНАРА

## Р Е З Ю М Е

Диссертация состоит из введения, двух глав, заключения, списка использованной научной литературы.

Во введении даются актуальность темы, её цели и задачи, объект, источники исследования, методы, научная новизна, теоритическая и практическая значимость диссертации и апробация исследования.

Первая глава диссертации под названием «Азербайджано-турецкие литературные связи и Анар» знакомит нас с краткой историей литературных связей Азербайджана и Турции, равитием взаимосвязей литературных деятелей в период становления независмости Азербайджана на примере творчества народного писателя Анара.

Во второй главе под названием «Творчество Анара в литературной критике Турции» проводится сравнительный анализ трудов, научных статей турецких критиков о творчестве Анара, в особенности о прозе автора. Начиная с 70-х годов, в турецких литературных журналах были опубликованы рассказы писателя. Появились и первые рецензии турецких литературоведов и критиков -Чукуркаваклы Байрам Кемаля «Беседа с видным азербайджанским писателем», Байкурт Факира «Об Анаре», Атаол Тюрккая «Азербайджанская литература и Анар» и др. В каждой из них творчество писателя рассматривался под тем или иным углом зрения. За минувшее десятилетие в Турци были изданы десятки книг автора.

Исследования показывают, что статьи, книги, научные исследования отдельных известных литературоведов и критиков Турции как Фикрет Туркмен, Фатма Озкан, Айше Атай и др. также сыграли значительную роль в ознакомлении турецких читателей с творчеством Анара. Творчеству Анара были посвящены научные исследования А.Атая «Анар. Жизнь и творческий путь» и Н.Нагиевой «Романы современного азербайджанского прозаика Анара».

В заключении обобщаются результаты исследования, сделанные на основе изучения проблематики диссертационной работы.

**Z.İ.ALİEVA**

# LITERARY ENVIRONMENT OF TURKEY AND CREATIVE WORK OF ANAR

## S U M M A R Y

Dissertation consists of introduction, two chapters, conclusion and list of used literature. The introduction explains the topicality of the subject, purpose and objectives, object, subject, sources, method and scientific novelty, theoretical and practical importance and approbation of the research.

The first chapter of the dissertation called «Turkish-Azerbaijan literatury connection and Anar» introduces studies of different researchers. The second chapter titled «Creative work of Anar in the literary criticism of Turkey". Here analysed the short historical literary connection of Azerbaijan and Turkey and literary activity of People's Writer of Azerbaijan Anar is one of the loved and more read writers in our independent country. Turkish literary environment first got acquaintance with Anar's literary activity in 1970-s. Begining from 1975 first articles about Anar began to appear in Turkish press, such as: «A talk with famous Azerbaijan writer Anar» by Chukurkavakly Bayram Kamal, «About Anar» by Baykurt Fakir, «Azeri literature and Azeri writer Anar» by Ataol Turkkaya and so on.

Beginning from the 1980-s Anar's stories and novels began to be published in Turkey. Sosial and political changes in life caused changes in literary relations beginning from the 1990-s. And from these years Anar became popular in Turkish press not only as a writer but also as a literary critic, script writer, literary scholar and public leader.

Every Turkish literary critic who first reads Anar's works returns his literary activity again once again. Very famous men of Turkey as professor Fikret Turkmen, literary scholars Ayshe Atay, Fatma Ozkan, the writer Sevinc Chokum and others expressed very high opinions of Anar's works,who is known in Turkey with his stories, novels and film scripts. Anar is always in the centre of literary life of Turkey and he is loved and known all over Turkish world. 6

Conclusion provides issues, explored throughout the dissertation, on the basis of available conclusions.

**Kağız formatı 60x84 1/16**
**Sayı – 100 nüsxə**

---

**AMEA-nın mətbəəsində çap olunmuşdur**

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ

*На правах рукописи*

**ЗАКИРА ИМАМВЕРДИ кызы АЛИЕВА**

# ЛИТЕРАТУРНАЯ СРЕДА ТУРЦИИ И ТВОРЧЕСТВО АНАРА

5716.01- Азербайджанская литература
5717.01 - Мировая литература (Литература Турции)

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по филологии

БАКУ - 2014